Ədəbiyyatımızda intellekt şeir

Sərxan XƏZƏR

Ta uşaqlıqdan öyrəndiyim şeirlərin, qəzəllərin ahəngi çəkirdi məni. Çoxunun mənasını anlamasam da, deyilişi, ahəngi qulağa xoş gəlir və mən Nizamidən, Füzulidən, Nəsimidən, Sabirdən qəzəllər öyrənirdim.

İlk dəfə doqquzuncu sinifdə mən Ədəbiyyat müntəxabatı kitabından Füzulinin "Pəmbeyi-daği cünün içrə nihandır bədənim" və Nəsiminin "Məndə sığar iki cahan" qəzəlinin şərhini oxumuş və həqiqi şeirin nə demək olduğunu anlamışdım. Qəzəllərin hər birinə iki səhifəlik şərh yazılmış və hər biri beyt-beyt açıqlanmışdı. Mən o zaman anlamışdım ki, gözəl şeir ahəndarlığı, axıcılığı ilə birlikdə həm də dərin, obrazlı və mənalı olan şeirdir. Füzuli, Nəsimi şeirlərinin qüdrəti onların az kəlmələrlə çox şeylər ifadə etmək fəlsəfəsində idi.

Azərbaycan poeziyası bu baxımdan yəni intellekt şeir sarıdan heç vaxt kasad olmamışdır. Ədəbiyyatımızı korlayan mənasız söz yığınlarının, mədhiyyələrin şeir adıyla çap olunduğu qaranlıq Sovet dövründə belə Məmməd Araz, Əli Kərim, Ramiz Rövşən kimi mayaklar bədii yolu işıqlandırmış, SÖZ qədrini bilib, insanlara bildirmişlər.

Amma bunlarla yanaşı, ara şairləri və ara şeirləri də heç vaxt poeziyamızdan əl çəkməmiş, xalqın estetik zövqünü korlamağa, aşağı salmağa davam etmişdir. Bu mənada bəlkə də Sənət sənət üçündür deyənlər hardasa haqlıdır. Hazırda sadə xalqın bayağı, mənasız şeirləri oxuyub, meyxanalardan həzz aldığını təəssüflə müşahidə edəndə sənət xalq üçündür deməyə dilim gəlmir. Lakin şair və digər sənətkarlar -rəssamlar, musiqiçilər və. s xalqın zövqünü formalaşdırmalı insanların intellektini yüksəltməlidir. Necə ki Məzahir Hüseynzadə poeziyası bu amala xidmət edir.

Atam M. Hüseynzadə haqqında fikirlərimi yazmağım kimlərəsə qəribə gələ bilər, amma hər halda onun haqqında ən dolğun fikirləri də onun övladları yaza bilərdi. Axı onun xarakterinin cizgilərini və şeirlərini övladlarından yaxşı kim duya bilər? Bu yazını yazarkən mən tərifdən qaçmağa xüsusi diqqət edirəm, çünki Məzahir müəllim tərifi sevmir. Odur ki mən sadəcə qısa şərhlərlə şeirlərdən misallar gətirəcəm, qoy ŞEİRİN özü danışsın...

Məzahir Hüseyzadə şeirləri onun xarakterinin inikasıdır. Onun xarakterindəki həssaslıq, sadəlik, həlimlik, xeyirxahlıq , məsuliyyət və tələbkarlığı şeirlərindən də oxumaq olar.

Sadə bir misal çəkim. Onun şeirə qarşı tələbkarlığının özüm şahidi olmuşam. Bir dəfə 10 bəndlik bir şeir yazmışdı bizə oxudu, biz çox bəyəndik. Səhəri gün həmən şeiri gətirdi ki, bəzi düzəlişlər etmişəm. Baxdıq ki şeir 5 bənd qalıb amma daha maraqlı, daha mənalı, daha dərin alınıb. Bu tələbkarlığın nəticəsidir ki, onun poeziyasında boş misra yoxdur. Hər misranın məna yükü var:

... qayadan asılan sırsıra buzlar,
Bir heykəl gözündə yaşa bənzədi...

...gözümdən açılan baxışlarımla ,
Dolaşım araba təkərlərinə...

...Atın qüvvəsini maşınlar alıb,
Maşın sürətiylə seyrəlir atlar...

...Sənin on sətirlik bir məktubunu ,
Yüz yol oxuyuram, yenə qurtarmır...

...Bir baxın dağların tutub saçından,
Qoluna dolayır kənd dəyirmanı...

...Sərhəd dirəkləri boynunu əyir,
Çarmıxa çəkilmiş şəhidlər kimi... və. s.

Məzahir Hüseynzadə yaradıcılığında Vətənpərvərlik qulağa oxunan, qışqıran pafos deyil, ürəyə toxunan, pıçıldayan hiss-həyəcan, həqiqi vətəndaşlıq duyumudur.

Nadanın gözündə Vətən kef-damaq,
Qəlbində lap bircə qarışdır Vətən.
Qəribin evində bir çimdik torpaq,
Qəribin alnında qırışdır Vətən. . .

Onun Qarabağ, Vətən , Azərbaycan dili və Tarixi haqqında şeirlərini oxuyarkən bir tarixçi kimi tariximizə nə ölçüdə bələd olmasını görməklə birlikdə tarixin gələcəyə baxan yönünü, çağırışlarını da sezə bilərik:

Tarixim şeirində:

...Sən dərin yazıldın torpağa , göyə
Bəsitcə yazıldın kağız üstünə.
Xalqıma gücləri çatmadı deyə,
Böhtanla durdular sənin qəsdinə.

Başqa şeirində;

...Ocaq yerlərinin bozarır külü,
Mən hardan öyrəndim belə solmağı?!
Xocalı deyəndə gözüm tökülür,
Hanı göz yaşımın mərmi olmağı?

Dilim şeirində Sovet dövründə küncə qısdırılmağa çalışan dilimizin təəssübünü çəkərkən, şair yad dildə danışmağı mərifət zənn edənlərə :



Dilim ona görə topuq çalır ki,
Ağzını yad sözlər darısqal edir.

Deyir və dilimizin qüdrətini bu misralarla dilə gətirir;

Əgər qılındırsa dilim düşmənə,
Elə qılıncsız da keçinmək olar...

Başqa şeirlərində isə şairin tarixə fərqli yanaşmasını və tarixi səhvləri təkrarlamamaq naminə çağırışlarını eşidirik:

...O vaxt qılıncını itiləsəydi,
Dığa yürüməzdi qan şirəmizə.
Türkiyə genosid eyləsə idi,
Hədiyyə olardı yer kürəmizə. . .

misralarında olduğu kimi...

Onun yaradıcılığında Cənubi Azərbaycan , Araz çayı və Qarabağ motivləri xüsusi yer tutur.

Qış gedib söyüdün şalı göyərib,
Dağların yamacı yalı göyərib,
Dünyada körpü var yolu göyərib,
Düşüb bəxtimizə Araz üstədir. . .

Şair bölünmüş xalqların birləşməsinə sevinməklə birlikdə bizim xalqımızın bu arzusunun hələ də Araz çayını keçə bilməməsinə təəssüflənir.

Haçan düşmən oldu qardaş qardaşla,
Sevgi qalasını kimlər sökdürdü?
Sərhəddən sökülən bir əlçim daşla,
Hər alman bir sevinc evi tikdirdi. . .

Yaxud,

...Ulduzlar göylərdən sulara enib,
Arazın halına yanar, yanarlar.
Dərdli qocalar tək dağa söykənib,
Burda küləklər də ufuldanarlar. . .

"Qarabağda Novruz bayramı" şeirində isə, məcburi köçkünlərin acınacaqlı halı təsvir olunur;

Ulduza ilişib qalan lopalar,
Şuşaya enməyə yer tapa bilmir. . . .
...Orda qapı-qapı gəzən kosalar,
Qalıb qapısında idarələrin.
...Tonqaldan atlanan öyrəncəlilər,
Asanca atlandı torpağın üstdən. . .

"Xarı bülbül şadlıq sarayı", "Qarabağ siqareti" şeirlərində isə şair bu adları bu obyektlərdə "yaşatmağın" mənasızlığını özünəxas ironiya ilə bildirir:

...Səsimiz aləmə car olub gedir,
Əsl hədəfinə fəqət çatmayır.
Orda Xarı Bülbül xar olub gedir,
Burda "Xarı bülbül" kefdən çatlayır.
...Büllur badələri yerə çırpanlar,
Şuşanı şüşətək çilikləyirlər. . .
...Qüssə sinəmizi sökür, dağıdır,
Hələ qabaqdadı yolun çətini.
Qarabağ dərdini çəkmək ağırdı,
Çəkirik "Qarabağ" siqaretini. . .

Şəxsi qənaətimcə, M. Hüseynzadə yaradıcılığının ilk dövrlərində poetiklik fəlsəfilikdən daha bariz, yaradıcılığının ortalarında isə fəlsəfilik, fikri dərinlik poetikliyin önündədir.

Onun gənclik şeirlərinin poetikasına diqqət edək;

...Səni gəzir həsrətimin od əli,
Dümağ sevinc axtarıram dumanda.
Qəribədir,
Bu ayrılıq düşəli,
Görüşürük gözlərimi yumanda. . .

* * *

İçib şəlaləni dərə çayları,
Kefli adam kimi səndirlədirlər. . .

* * *

Bulaq şəklimizi çəkdi sevincək,
Aparıb dənizdə böyüdəcəkdir. . .

Piyalə qəlbimi məndən alıb tez
Təkcə həsrətini içdi o axşam.
Gizli məhəbbətə nöqtəydi ulduz,
Ay da vergül kimi düşdü o axşam. . .

M.Hüseynzadənin xarakterindəki xeyirxahlıq haqqında yazmağa gərək yoxdu, çünki o etdiklərini sufi-dərviş anlayışıyla minnətsiz və qarşılıqsız edir. Odur ki bunları açıqlayaraq onun etdiyi xeyirxahlıqların savabını da azaltmayaq. Sadəcə bir fakt demək kifayətdir ki o "Şeytan qız" kitabının qonorarını bütövlükdə Müdafiə Fonduna köçürüb. Onun şeirləri də bu xeyirxahlığın təsirindən uzaqda qala bilməzdi. Onun yaradıcılığında həlimlik və xeyirxahlıq təkcə insanlara şamil olunmur, heyvanlara, ovlanan quşlara, bitkilərə, kəsilən ağaclara hətta cansız əşyalara-batan bulağa, müqəvvaya da əl uzadır:

...Torpağın önündə çöksə idi o,
Bir çala qazsaydı külünglə, bellə.
Ömründə bir ağac əksə idi o,
Bu yaşıl ağacı kəsməzdi belə. . .

Hansısa özündənrazı vəzifəlinin naqisliklərini göstərməklə birgə şair ona öyüd mahiyyətindəki bu misralari da dilə gətirir;

Bəzən də hökmündən əlini düyüb,
Altdan boylanırdı, üstən süzürdü.
Hərdən möhrünü də çəkic eyləyib,
Stol zindanında tale əzirdi. . .

90-cı illərdə yazılmış gözəl misralar bu gün də aktualdır

Yuxarıda qeyd etmişdim ki onun şeirləri xarakterinin əks-sədasıdır. Məzahir müəllimin qəribə xarakterlərindən biri də hər şeydə yenilik, orijinallıq axtarmasıdır. Biz hər dəfə rayona, evimizə gedəndə şair mütləq nəsə bir yenilik edir, ya evin quruluşunda, ya otaqlardakı əşyalarda. Amma mütləq bizi bir yenilik sürprizi gözləyir. Şeirdə də yenilik, yeni fikir M. Hüseynzadənin ən çox fikir verdiyi və bizlərə də ən çox təlqin etdiyi bir anlayışdır. Çünki hər şey deyilib, necə deyərlər, Nizami hər şeyi demiş birinci, qoymamış cilasız qalsın bir inci. Odur ki indi mühim olan bu bilinən, görünən, deyilən şeyləri orijinal bir şəkildə oxucular a çatdırmaqdır.

Gizlənqaç oynadım bəxt paylananda,
Yəqin axtarıblar tapılmamışam. . .
Çiynimdə şax duran paqon deyil ki,
Vətən əllərini çiynimə qoyub. . .

* * *

Qız gəlir əlində əlvan çətiri,
Səhərdən xəyalən gedişirdilər.
O gül yanaqları öpməkdən ötrü,
Damlalar çətirlə didişirdilər. . .

* * *

Nə yaxşı qarşıma çıxdın nə yaxşı,
Yolları mənsizmi görmüşdün belə?!
Bəhanə eyləyib sürüşkən qışı,
Kim idi, qoluna girmişdin belə?!

Şairin yaradıcılığının ən dəyərli hissələrindən biri də ata-ana haqqında yazdığı şeirlərdir. Bu yerdə bir daha deyirəm mən bu misraları təhlil etməyə cəsarət etmərəm, qoy Şeirlər özü danışsın qoy oxucu özü qiymətini versin:

Kövrək xasiyyəti pilədən pilə,
Can qurban edərdi adamdan ötrü.
Sən demə adamlar bir yana hələ,
Ölüm də ölürmüş atamdan ötrü. . .

Anası haqda:

Qulağı həmişə səsdə-soraqda
Bir gəlin görəydi bu ev, bu ocaq.
Məni ayaqlarım ana torpaqda,
Anam ürəyində gəzdirər ancaq.

Əsl şair şeirlərini bütün insanlıq üçün-bəşəriyyət üçün yazan şairdir. Bu mənada Məzahir Hüseynzadə poeziyası vətənpərvər olduğu qədər də kosmopolitdir.

Bir ev tikdirəcəm min mərtəbəli
Damı olacaqdır göyün qübbəsi.
Ulduz yığışırmağa çatacaq əlim,
Ayağım altında Eyfel qülləsi. . .

Bəli, bu cür misralarla zəngin olan Məzahir Hüseynzadə yaradıcılığı öz fəlsəfi dərinliyi ilə bəşəridir və bütün insanlığa xidmət etməyə layiqdir. O, bir şeirində :

"Ağ vərəq üstündə açdığım şuma,
Söz səpsəm bilmirəm nə göyərəcək"
- deyir.

Biz isə bilirik. Bilirik ki , poeziyamıza, dünya ədəbiyyatına gərək olan təravətli, OBRAZLI, gözəl şeirlər göyərəcək... Və onun hər son şeirinə qoyduğu nöqtə öz ifadəsiylə desək, təzə şeirlərinin toxumu olacaq. Biz poeziya vurğunları isə hər zaman onun yeni şeirlərinin intizarla gözləyəcəyik...

Hələ çinar olub bitməmişəm mən,
Dost var harayına yetməmişəm mən.
Ən ötkəm nəğməmi ötməmişəm mən,
Qələmim əlimdə avaz üstədir. . .